"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru
İlham Mədətov
_____
_____ 2023

ATMU-KTŞ-TP(XEŞMT)-01

Azərbaycan Turizm və Menecment Universitetində
xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi üçün
TƏDBİRLƏR PLANI

Hazırki sənəd Azərbaycan Respublikasının "Təhsil haqqında" (19 iyun 2009), "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil)" (05 iyun 2001), "Əlilliyi olan şəxslərin iş yerlərinin standartları" (03 sentyabr 2019) haqqında bu və digər müvafiq qanunlar, bir sıra beynəlxalq konvensiyalar və həmçinin ölkəmizdə 2018–2024-cü illəri əhatə edən "Sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə" Dövlət Proqramı (14 dekabr 2017), həmçinin Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) 2022-2026-cı illər üçün nəzərdə tutulmuş Strateji inkişaf planına istinadən hazırlanmışdır.

Bu sənədin əsas məqsədi ATMU-da xüsusi ehtiyacları olan, həmçinin sağlamlıq imkanları məhdud şəxslərin təhsil almaq və əmək fəaliyyəti ilə məşğul olmaq hüquqlarını digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan və münbit şəraitin dəstəklənməsindən ibarətdir.

ATMU strategiyasına da əsasən bu kimi fəaliyyətlərin həyata keçirilməsi üçün mövcud ehtiyacların və kampusla bağlı beynəlxalq standartların tələbləri nəzərə alınmaqla yeni tədris binasının yaradılması planlaşdırılır. Yaxın gələcəkdə isə mövcud tədris binalarında maddi-texniki baza və infrastrukturun yenidən qurulması bu baxımdan müstəsna rol oynayacaqdır. Bu baxımından ATMU-da xüsusi ehtiyacı olan şəxslərin təhsil və əmək şəraitinin əlçatanlığını təmin etmək üçün Cədvəl 1-də qeyd olunmuş tarixləri əhatə edən tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

Tədbirlər planının hazırlanmasında universitetdə əlilliyi olan tələbələrin və əməkdaşların dinamikası nəzərə alınmışdır. Bunun əsasında tələb olunan xidmətlərin və gələcək üçün atılacaq

addımların icrası üçün Cədvəl 1-də göstərilmiş fəaliyyətlərinin icrasına görə məsul strukturların əməkdaşlarından ibarət işçi qrupunun yaradılması nəzərdə tutulur. Həmçinin, bu sənəddə öz əksini tapmış tədbirlərin daha effektiv tətbiqi məqsədilə Keyfiyyət təminatı şöbəsi tərəfindən dəstəyin göstərilməsi və fəaliyyətlərin icrası ilə əlaqədar vaxtaşırı monitorinqin təşkili planlaşdırılır.

Cədvəl 1. Tədbirlər planı

Faəliyyət	Məsul qurum	İcra tarixləri
1. Tədris və öyrənmə mühitinin təkmilləşdirilməsi		
1.1. Hər iki tədris binasında mühazirə auditoriyalarında ən azı bir oturacağın sağlamlıq imkanları məhdud şəxslərin təhsil almaları üçün nəzərə alınması	Xidmət şöbəsi	Sentyabr 2024
1.2. Kitabxana İnformasiya Mərkəzində axtarış sisteminin inkluziv təhsil sisteminə uyğunlaşdırılması	İT şöbə	Sentyabr 2024
1.3. Gözdən əlillərin keçdiyi fənlər üzrə dərs vəsaitlərinin səsli formada hazırlanması və audio kitab fondun yaradılması	Kitabxana-İnformasiya Mərkəzi kafedralar ilə birgə	Sentyabr 2023 – dən başlayaraq ehtiyaca uyğun müntəzəm qaydada
1.4. Əmək funksiyalarının yerinə yetirilməsi şərtlərini nəzərə alınmaqla əlilliyi olan şəxslərin kompüterdə işləməyi nəzərdə tutan iş yerlərinin / tədris otaqlarının xüsusi klaviatura və digər idarəetmə elementləri ilə təchiz edilməsi	Xidmət şöbəsi və İT şöbə	Sentyabr 2023 – dən başlayaraq ehtiyaca uyğun müntəzəm qaydada
1.5. İri relyef-kontrastlı şrift və Brayl şrifti ilə tədris materiallarının çap edilməsi məqsədilə müvafiq avadanlıqla təchiz olunmuş təhsil müəssisəsi və ya nəşriyyat evi ilə əməkdaşlığın qurulması və ehtiyaca əsasən sifariş əsaslı vəsaitlərin təmin olunması	Elm və innovasiya şöbəsi	Sentyabr 2023 – dən başlayaraq ehtiyaca uyğun müntəzəm qaydada

1.6.	Unversitetinin rəsmi veb-saytında və ümumi istifadədə olan kompüter avadanlıqlarında vizual informasiyanın səsləndirilməsi imkanının yaradılması, beynəlxalq standartlara uyğun olaraq veb-kontent və veb-servis xidmətlərinin proqram təminatı əsasında yazı şriftinin uyğunlaşdırılması	İT şöbə	Sentyabr 2023 –dən başlayaraq ehtiyaca uyğun müntəzəm qaydada
2. Qiymətləndirmənin təşkilində sağlamlıq imkanları məhdud şəxslər üçün əlverişli şərtlərin nəzərə alınması			
2.1.	Əlilliyi olan şəxslərə əlavə vaxtın verilməsi	Təhsildə qiymətləndirmə şöbəsi	İyun 2023 –dən başlayaraq ehtiyaca uyğun müntəzəm qaydada
2.2.	Yazılı imtahanın şifahiyə keçirilməsi və ya ehtiyacdan asılı olaraq əksinin tətbiq edilməsi	Təhsildə qiymətləndirmə şöbəsi	Dekabr 2023 –dən başlayaraq ehtiyaca uyğun müntəzəm qaydada
2.3.	Əlilliyi olan şəxslərə zərurətdən irəli gələrək sual və ya imtahan vərəqələrinin əlçatanlığının təmin edilməsi (geniş çap, brayl şrifti, dil və s.)	Təhsildə qiymətləndirmə şöbəsi	Dekabr 2023 –dən başlayaraq ehtiyaca uyğun müntəzəm qaydada
2.4.	Gözdən əlilliyi olan şəxslərə imtahan şərtlərinin çatdırılması üzrə katiblik xidmətinin təşkili	Təhsildə qiymətləndirmə şöbəsi fakültələrlə birgə	Dekabr 2023 –dən başlayaraq ehtiyaca uyğun müntəzəm qaydada
2.5.	Texniki təchizatın (kompüter avadanlıqları və qiymətləndirmə üçün tətbiq edilən prqoram təminatı) uyğunlaşdırılması	İT şöbə	Dekabr 2023 –dən başlayaraq ehtiyaca uyğun müntəzəm qaydada
3. Digər infrastruktur uyğunlaşmaları (sanitar qovşaq, parkinq, telefon, yeməkxana və s.)			
3.1.	Müəyyən sayda istifadə edilən sanitar-texniki avadanlıq və mebellərin əlçatan zonada yerləşdirilməsi və düzülüşünün rahatlığının təmin edilməsi	Xidmət şöbəsi	Sentyabr 2023 –dən başlayaraq

3.2.	Arabada hərəkət edən əlilliyi olan şəxslər üçün hər iki tədris binasında giriş və mərtəbələrarası pilləkənlərdə xüsusi avadanlıqların quraşdırılması və rampaların tutacağının uyğunlaşdırılması	Xidmət şöbəsi	Avqust 2023 –dən başlayaraq
3.3.	Görmə qabiliyyətini tam itirmiş şəxslər üçün xüsusi hazırlanmış relyef şrifti, taktil cığırların salınması	Xidmət şöbəsi	Avqust 2023 –dən başlayaraq
3.4.	Sağlamlıq imkanları məhdud tələbə, əməkdaş və universitet qonaqları üçün xüsusi parklanma yerlərinin yaradılması və müvafiq olaraq nişanlanması	Xidmət şöbəsi	Avqust 2023 –dən başlayaraq
	4. Dəstək və təbliğat xarakterli tədbirlər		
4.1.	Sağlamlıq imkanları məhdud şəxslərə dəstək xarakterli məsləhət və psixoloq xidmətinin təşkili	Fakültələr və Karyera və kommunikasiya şöbəsi	Sentyabr 2023 –dən başlayaraq
4.2.	Universitet heyətinin əlilliyi olan tələbələrinin ehtiyaclarını ödənilməsinə dair təlimatlandırılması	Fakültələr və Karyera və kommunikasiya şöbəsi	Avqust 2023-dən başlayaraq
4.3.	Əlilliyi olan şəxslərlə əlaqədar maarifləndirmə işinin təşkili	Fakültələr və Karyera və kommunikasiya şöbəsi	Sentyabr 2023 –dən başlayaraq ehtiyaca uyğun müntəzəm qaydada
4.4.	Ehtiyaca uyğun olaraq bufetdə xüsusi menyulardan istifadənin tətbiqi	Xidmət şöbəsi və bufet	Sentyabr 2023 –dən başlayaraq ehtiyaca uyğun müntəzəm qaydada

Hazırki Tədbirlər planı 28 aprel 2023-cü il tarixli Elmi Şura iclasında 06 №-li protokolla təsdiq olunmuşdur.